Ticarət

**Azərbaycanda elektron ticarət bəyannamələrinin təqdim edilməsində yenilik olacaq. Dövlət Gömrük Komitəsinin qərarına əsasən, 2026-cı il iyunun 1-dən etibarən "SmartCustoms" və "e.customs.gov.az" sistemlərində FİN kod və parol vasitəsilə elektron ticarət bəyannaməsi xidmətindən istifadə mümkün olmayacaq. Bundan sonra vətəndaşlar yalnız "Asanİmza", "SİMA" və ya "MYGOV/QR" kimi rəqəmsal identifikasiya vasitələri ilə sistemə daxil olaraq mallarını bəyan edə biləcəklər. Mövzu ilə bağlı iqtisadçı-ekspert Əli Əlirzayev deyib ki, bu qərar ilk baxışdan texniki dəyişiklik kimi görünsə də, əslində elektron ticarət və gömrük prosedurlarında yeni mərhələnin başlanğıcı hesab olunur. Onun sözlərinə görə, dəyişikliklərin əsas təsiri ilk növbədə vətəndaşların gündəlik alış-veriş vərdişlərində və gömrük prosedurlarına yanaşmasında özünü göstərəcək:**

# Elektron ticarətdə yenilik



"Ən vacib təsirlərdən biri təhlükəsizliklə bağlıdır. FİN kod və parolun oğurlanması və ya üçüncü şəxslərin əlinə keçməsi nəticəsində vətəndaşın xəbəri olmadan onun adına bəyannamə yazılması halları baş verə bilərdi. Elektron imza isə daha güclü identifikasiya vasitəsi hesab olunduğundan belə risklərin qarşısını almağa xidmət edəcək. Bu dəyişiklik nəticəsində həm şəxsi məlumatların qorunması güclənəcək, həm də elektron ticarət əməliyyatlarında saxtakarlıq ehtimalları azalacaq. Qərarın digər mühüm təsiri elektron ticarət prosesində daha ciddi nəzarət mexanizminin formalaşmasıdır. Elektron imza ilə təsdiqlənən əməliyyatlar daha şəffaf izlənildiyi üçün yanlış bəyannamə təqdim etmə, qeyri-dəqiq məlumat daxil etmə və qeyri-qanuni rəsmiləşdirmə imkanları xeyli məhdudlaşacaq. Bu da gömrük prosedurlarının daha sistemli aparılmasına və dövlət nəzarətinin güclənməsinə səbəb olacaq.

> *"Bu dəyişiklik nəticəsində həm şəxsi məlumatların qorunması güclənəcək, həm də elektron ticarət əməliyyatlarında saxtakarlıq ehtimalları azalacaq*

Yeni qaydaların təsiri yalnız adi vətəndaşlarla məhdudlaşmayacaq. Xaricdən mütəmadi mal gətirən şəxslər, kiçik onlayn bizneslə məşğul olanlar və logistika-kuryer sektorunda çalışanlar üçün də bu dəyişiklik birbaşa əhəmiyyət kəsb edir. Elektron imzası olmayan şəxslər iyun ayından sonra mallarını bəyan edə bilməyəcəkləri üçün onların fəaliyyəti müəyyən müddət ləngiyə bilər. Xüsusilə onlayn satış edən kiçik sahibkarların sənədləşmə prosesini yenidən qurması və rəqəmsal imzaya keçməsi vacib olacaq".

Bununla yanaşı, mütəxəssislər hesab edir ki, qərar uzunmüddətli perspektivdə elektron ticarətin inkişafına da müsbət təsir göstərə bilər. Çünki rəqəmsal identifikasiya sistemlərinin tətbiqi dövlət xidmətlərində vahid standart formalaşdırır və ümumi rəqəmsallaşmanı sürətləndirir.

"SİMA" və "MYGOV" kimi platformaların geniş yayılması vətəndaşların rəqəmsal savadlılığını artıracaq, dövlət xidmətlərindən istifadədə daha müasir yanaşmaların formalaşmasına səbəb olacaq. Nəticə etibarilə, qərar qısa müddətdə vətəndaşlar üçün əlavə prosedur və uyğunlaşma dövrü yaratsa da, əsas məqsəd elektron ticarət prosesində təhlükəsizliyin gücləndirilməsi və gömrük əməliyyatlarının daha şəffaf idarə olunmasıdır. İyunun 1-dən sonra elektron ticarət bəyannamələrində yeni sistemin tətbiqi həm saxtakarlığın qarşısının alınmasına, həm də elektron xidmətlərin daha etibarlı platformaya çevrilməsinə xidmət edəcək. Bu baxımdan, vətəndaşların və sahibkarların elektron imza məsələsini indidən həll etməsi gələcəkdə yarana biləcək çətinliklərin qarşısını almaq baxımından mühüm addım hesab olunur.

✍ Sevinc